# 20 yanvar faciəsi bədii ədəbiyyatda (1990-2000)

**Aynurə Paşayeva**
*AMEA-nın Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** aynure8@mail.ru
**Pəri Həsənli**
*AMEA-nın Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun böyük laborantı*
**Töhfə Əmrahlı**
*AMEA-nın Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi*

**Rəyçilər:** filol.ü.f.d., dos. L. Həsənova,
filol.ü.f.d., dos. M. Nəcəfova

**Açar sözlər:** 20 Yanvar, qərənfil, şəhid, ədəbiyyat, mətbuat, poeziya
**Ключевые слова:** 20 Январь, гвоздика, шахид, литература, пресса, поэзия
**Key words:** 20 January, carnation, martyr, literature, press, poetry

1990-cı illərin əvvəllərində Sovet dövrünün dəyərləri iflasa uğrayır, yeniləri isə o qədər asanlıqla təşəkkül tapmadı. 1990-cı illərin də poeziya böhran yaşamış şeirdə yalnız bir ovqat – milli insan ağrısı, yurd sevgisi, 20 Yanvar faciəsi, torpaq itkisi, şəhidlik acısı natural boyalarla təsvir olunmuşdu. 20 Yanvar faciəli mövzular ədəbiyyata şəhidlik mövzusu, şəhid obrazını gətirdi. 20 Yanvardan sonra ədəbiyyatın adi ritmi pozuldu, xalqlar, millətlə bərabər ədəbiyyatın özü də bir növ tarixi sınaq qarşısında qaldı.

1970-ci illərin senzurasında boğulan, ictimai-siyasi məcrada bəslənən dekadans ovqat nəfəs genişliyi əldə edərək ruhun nəhayətsizlik sevdasını, insanın iç dünyasının çöküşünün ifadə eləmək üçün yeni fəaliyyət sferasına bu dövrdə daxil oldu. Ötən əsrin əvvəllərindən başlayaraq meydana çıxmış modernist cərəyanlara əsrin sonunda yenidən qayıdıldı, simvolizm, sürrealizm, ekzistensializm, postmodernizm və s. tətbiq edildi.

20 Yanvarla bağlı qüvvətli əsərlərin yazılmaması müasir ədəbi tənqiddə bəzən sual kimi ortaya qoyulur. Prof. Rüstəm Kamalın fikrincə "bizim hələ şəhidlik kultunu qabarda biləcək səviyyədə mərsiyyələrimiz, nə də romanlarımız var" (1, 10). Professorun fikrincə, mərsiyyələrin azlığı ilə bağlı fikri ilə razılaşmasaq da, nəsr haqqında fikri ilə razılaşmaq əsaslıdır. Hadisələrin başlandığı vaxtda sanballı əsərin yazılması qeyri-mümkün idi. Digər tərəfdən 1990-cı illər xaosundan ayrılmaq asan deyildi.

1.20 Yanvar faciəsinin poeziyada bədii inikası

Ümummilli lider Heydər Əliyevin 1997-ci ildə Azərbaycan Yazıçılarının X qurultayında nitqində qeyd etdiyi kimi "O vaxt bizim dövlət adamları bunun əleyhinə çıxmadılar, bu barədə öz sözlərini deyə bilmədilər, üstünü örtüb basdırmağa çalışdılar. Ancaq siz - ədəbiyyat adamları və xüsusən yenə də Bəxtiyar Vahabzadə, Xəlil Rza kimi insanlar o təcavüzün qarşısına çıxdılar" (2, 2).

20 Yanvar hadisələri mövzusunda ən yüksək poetik ruhlu əsərlərin müəllifi

B.Vahabzadənin "Şəhidlər" (3) poeması faciənin fəlsəfi-poetik dərkində öz bədii-estetik siqlətini bu günədək qoruyub saxlayır. Filol.e.d. Elnarə Akimovanın fikrincə "B.Vahabzadə poeziyasının fərqliliyi ondadır ki, heç bir quramaçılığa uymadan şeir yazmaq, qəlbinə hakim olmuş duyğuları əzib korlamadan mətnə köçürmək idi" (4, 197).

Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması verdiyi suallarla bütün dövrün acı taleyi, tarixini proseslərini canlandırır. Bəxtiyar Vahabzadənin 1990-cı ilin 20 yanvar hadisələrinə həsr olunan "Şəhidlər" poemasında, Azərbaycan xalqının əsrlər boyu zülm və istismar altında yaşamasına baxmayaraq bu quruluşdan: siyasi-ideoloji yasaq və təzyiqlərdən qanı-canı bahasına qurtarmaq uğrunda aparılan mübarizəsinin ibrətamiz səhnələri ilə qarşılaşırıq. B. Vahabzadə yaradıcılığında milli istiqlal düşüncəsinin təsvirinin böyük bir tarixi olduğunu görmək mümkündür. Filol.e.d. Vaqif Yusiflinin fikrincə "B.Vahabzadənin "Şəhidlər" poemasının alternativi yoxdu" (1, 10).

1990-cı illərdə qlobal hadisə və proseslərin milli düşüncəyə axını daha çox gücləndi. 1990-cı illərin ortalarına qədər poeziyaya daha çox çılğın, əsəbi notlar üzərində gəzişir, poetik pafos, hislərin çılğın ifadəsi (Qaçay Köçərlinin "Şəhidlər xiyabanı" şeirində (5, 2), Zəlimxan Yaqub "Səslərin görüşü" (6, 2), Tahir Talıblının "Susmuş hünərə elegiya" (7, 4), çağırış, Fəxr və qürur Vahid Əzizin "Qırğın" ağı-poemasında (8, 14), Sənan Çırağın "Haqq ədalət Kərəm kimi yalnız indi..." (9, 4), düşmənə nifrət Gəncəli şairə Xəzangülün "Tanrı dərgahında" (10, 9), Məmməd Alimin "Sahibin axtaran qol" (11, 2), ictimai kədər Məmməd Alimin "20 Yanvar küçəsi" (12, 2), Piruz Dilənçinin "Şəhidlər xiyabanı" (13, 8), üsyan intonasiyası, etiraz Zəngilan rayonundan Oqtay Ələkbərovun "Şəhriyar nəfəsi" (14, s.4), nikbinlik Xəlil Rza Ulutürkün "Sənin göz yaşların" (15, s.3), Ələkbər Şahidin "Şəhidlər" (16, s.4), Tofiq Nurəlinin "Bu meydan" (17, s.39), təskinlik Vidadi Babanlının "Başsağlığı" (18, 2), pessimist əhval-ruhiyyə Hafiz Əlinin "Bakıda komendat saatı" adlı şeirində (19, 8), Məhəmməd Aslanbəylinin "Bu il" (20, 8), Fikrət Qocanın "Ağlar" (21, 4), şəhid analarına təskinlik Əlirza Hikmətin "Şəhidlər xiyabanı" (22, 4), baş leytenant Yusif Bağırovun "Şəhidlik" (23, 4), Abbasağa Azərtürkün "Şəhidlərə" şeiri (24, 38), Qaçay Köçərlinin "Bir ovuc şəhid torpağı" (25, 45), Məzahir Hüseynzadənin "Şəhid anasının dedikləri" (26, 81) daha öndə qərarlaşırdı. 90-cı illərin ortalarından başlayaraq bədii fikirdə, ədəbi prosesdə üst baxış, daha təmkinli şair ədası, loyal yanaşması güclənir.

Arif Abdullazadə "O gecənin ağrıları" adlı məqaləsində (27, 5) həmin dövr mətbuatında nəşr olunan poemaları poeziya növünün yeni nümunəsi "poema ağı" adlandırmışdı.

1990-2000-ci illər mətbuatında uşaq şəhidlərə həsr olun şeirlər yer almışdır. Bakıda 118 saylı məktəbin şagirdi Aynur Ramizqızının şəhid qız "Larisanın xatirəsinə" həsr etdiyi bayatı şəklində şeir müəllifin sarsıntılarını ifadə edir:

Qurban olum bu elə,
Bu obaya, bu elə,
Səni vuran soldatı,
Çağırıram duelə (28, 4.)

Musa Ələkbərlinin "Oxu Zeynəbim oxu" şeiri (29, 4) şəhid olmuş balaca Zeynəbin həyat eşqi ilə dolu kədərli aqibəti, Məmməd Namazın "Körpə şəhidlərə layla" (30, 14) şeirində 13 yaşlı İlqar İbrahimovaya, Larisa Məmmədovaya şəhid, ağı deməyə dili gəlməməsi, acı, iztirab şeirdə müəllif emosional duyğularında inikasını tapmışdı.

20 Yanvar mövzulu poeziyada faciənin törədənlər də əsas məsələ kimi düşündürülən

problem sırasına daxildir. Roza Qarabağlının "Şəhidlər" (31, 8) min nisgil ilə dillərə dastan olan, ölməz əməli ilə parlayan, nakam şəhidlərin ailələrinə başsağlığı verən Qorbaçova "namərd" adlandırır.

Balaş Azəroğlunun "Günahkar" (32, 4) şeirində 20 Yanvar hadiəsinin törədilməsində özünü günahkar adlandırır. Günahın kökündə dayanan səbəbi isə xeyirxahlıq missiyasında görür. Məmməd Alimin "Doxsanıncı iyirmi Yanvar" (33, 106-107) şeirində can çəkişən imperiyanın 20 Yanvar törətməkdə, Qarabağ problemini qaldırmaqda məqsədi hiylədir – azərbaycanlıları məhv etmək bəhanəsidir. Hafiz Əli "Vətən şəhidləri" (34, 101) şeirində 20 Yanvar hadisələrinin tarixi kökünü ermənilərin Dağlıq Qarabağ iddiasından əvvələ, daha çox keçmişə dayandığını qeyd etməyə çalışır. Rəfail İncəyurdun "Yanvar ağıları" (35, 65) şeirinin poetikasında 20 Yanvar faciəsinin həqiqətlərini üzə çıxarmağa çalışır. Ən çox şeirdə oxucuya təsir edən 20 Yanvar şəhidi İlham və Fərizə, Fərizənin zəhər içərək həyata meydan oxuması böyük affekt oyadır. Rafiq Yusifoğlunun "Qan gölündə bitən gümüş azadlıq" şeirində (36, 65) hadisənin səbəbkarlarını göstərməyə çalışması "nala-mıxa vuranları tanıdaq" deyərək o dövrün intizamsız rəhbər başçılarını gizli kodda göstərir.

Kamran Mehdinin "Şəhidlərə ölüm yoxdu" (37, 8) şeirində tarixi bir addım irəli aparan şəhidlərə ölüm yoxdur deyərək şəhidlərlə fəxr edən vətənpərvər şair dayanır.

20 Yanvar faciəsinə dini-fəlsəfi yanaşma Məhməmməd Ərğəvanın "Şəhidlər" (38, s.5), Eyvaz Qələmçəlinin "Yas saxlayır" (39, 8), Suğra Abdullazadənin "Şəhidlər" (40, 7), Abbas Abdullanın "Kim ağlasın bizə qardaş" (41, 7) şeirlərində görmək mümkündür.

1990-cı illərdən başlayaraq poeziyamızda elə imzalar oldu ki, öz poetik yaşamları ilə "geriyə qayıdış"ın ən yaxşı nümunələrini yaratmaqla bahəm, həm də gələcək şeirin inkişaf trayektoriyasının cızılmasına səbəbkar oldular. Ancaq bununla yanaşı yenə də zəif poetik əsərlər Adil Şirinin "Şəhid gecəyə üç elegiya" (42, 2), Tofiq Abdinin "Yanvar ağıları" (43, 4), Babək Bəhrəmoğlunun "Şəhidlər" şeiri (44, 14), Aləmzar Əlizadənin "Barıtlı qızın çantası" (45, 45) şeirləri, Sabir Əhmədlinin "Qızıl güllə" (46, 15-17) hekayəsi mövcud idi.

2. Poeziyada qərənfil detalı

20 Yanvar faciəsinin ayrılmaz atributlarından biri də qərənfildir. Qərənfil klassik poeziyada qəmgin ovqat aşılayan güldür. 20 Yanvar 1990-cı ilə qədər Bakı kəndlərində satış məqsədi ilə yetişdirilən qərənfillər həmin faciədən sonra taleyi dəyişdi, matəm gülü simvoluna çevrildi.

Tofiq Mütəllibovun "Qərənfil məşəlləri" şeirində (47, 5) qərənfilin şəhidlər xiyabanında daşlaşmış aurasını belə tərənnüm edir:

Bu adi çiçəklər, bu qərənfillər,
Məzarlar üstündə müqəddəsləşib (47, 5).

Qərənfil göz yaşı simvolu kimi Şövkətin "Qərənfil yağışı" (48, 7), Ələkbər Salahzadənin "Qərənfillər" şeiri (49, 11), dözümülülk rəmzi kimi Elnarə Buzovnalının "Vətən şəhidlərinin xatirəsinə" (50, 13) qəzəli, Firuzə Əsədullayevanın "Qərənfil, ay qərənfil" (51, 4-5), şəhidlə torpaq arasında vüsal gülü kimi Kamran Mehdinin "Qara bayraqlar, qırmızı qərənfillər" (52, 67) şeirində simvolizə olunur.

3. Milli özünüdərk məsələsi

Hər bir xalqın tarixi taleyində elə zamanlar var ki, yaşanılan acılara rəğmən onun hürriyyət əzmini, mənəvi potensialını ehtiva etdiyindən qürur rəmzinə çevrilmişdir. 20 Yanvar mövzulu ədəbiyyatda ən çox diqqəti çəkən milli özünüdərk məsələsidir.

Milli özünüdərk milliliyin [qismən bəşəriliyin] sintez olunmuş qavrayışıdır. Milli istiqlal uğrunda mübarizə üçün tarixi şərait yetişdikdə milli özünüdərk hissi də məntiqi olaraq güclənir. Ümummilli lider Heydər Əliyevin 1997-ci ildə Azərbaycan Yazıçılarının X qurultayında nitqində qeyd etdiyi kimi "Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir (2, 4).

Milli özünüdərk vahid milli ideyanın təsiri ilə narazı təmayüllərin, yad, barışmaz ideyaların qlobal tendensiyaların içərisində yaranıb inkişaf edir. Bəxtiyar Vahabzadənin milli özünüdərk psixologiyasının əsasında özünü kənardan baxıb qiymət vermək, milli amili dəyərləndirmək durur. Onun "Təzədən yaratsın yaradan bizi" adlı şeirində (53, 4) şairi ən çox düşündürən xalqının illər boyu məruz qaldığı haqsızlıqların ölçü miqyası, eyni hüquqları daşıyan, amma millətlər içərisində ona qarşı qərəzli, ədalətsiz, ayrıseçkili münasibətdir:

Anlaya bilmirik astar nə, üz nə
İndi baxammırıq düzün gözünə (53, 4).

B. Vahabzadənin sovet siyasi rejiminin ən sərt dönəmində qələmə aldığı "Səbr elədik" (54, 2) milli istiqlal problemi ilə bağlı qənaətləri müstəqim şəkildə əks olunmuşdur. Şübhəsiz ki, sovet dönəmində, 1979-cu ildə yazılmış bu şeir konyunkturanın təsirindən nəşri mümkün deyildi. Ümumiyyətlə B. Vahabzadənin poeziyasında milli özünüdərkin bütün komponentlərini – milli mənlik şüur, milli fikir, milli bəşəri şüur, milli yaddaş, milli ruh, milli istiqlal arzusunu görmək mümkündür.

4. Faciənin nəsrdə bədii əksi

Sovet ideologiyasının məhvi ilə çox şey öz başqa stixiyasına dönmüşdü. "Ölü", "məzar", "tabut" tipajları funksionallıq kəsb etməsi insanı döyüşə yox, tənhalığa çəkirdi. Sabir Əhmədovun "Yanvar hekayələri" silsiləsindən olan "Dənizdən gələn səda" (55, 2) hekayəsində rusların hücumu ilə neftdaşıyan gəmidə həlak olaraq Dərbənd sahilinin suları üzərində qalan 5 bacının qardaşının yanğılı, düşmənə qarşı nifrət dolu, nisgilli, ancaq anasına təsəlli verən məktubudur. Məzarı dəniz olan oğul cəsədinin səssiz-səmirsiz anasına ünvanladığı sözlər 20 Yanvar hadisələrində itkin düşənlərin sözləridir. Hekayənin bədii publisistik üslubunda bədiilik qəhrəmanı özündən asılı deyil. Həmin saydakı "Cəza" hekayəsi şəhid ata və anaların emosionallığı, publisistik harayı, düşmənə mənfur münasibəti gücləndirir. Ancaq bu hekayədə konkretlilik və ünvanlılıq zəifdir, obrazların naməlumluğu, süjet zəif alınmasına gətirib çıxarmışdı.

Şamil Cahanın "Qan izləri" hekayəsində (56, 4-8) dərin hüznlü psixologizm hökm sürür, acı fəryadlı kədər, sevinclə nifrət qarşıdurması, qətllər üzərində vəzifə iddiası süjetin konfliktini dərinləşdirən elementlərdir. Əsərdə psixoloji paradokslar, şəhidlik, parça-parça olunmuş, ömrünü Sovet hərbinin bütövlüyü üçün çalışan Cahidlə, Azərbaycanın nemətlərini yeyib, 20 Yanvar faciəsi törətdiyinə görə milyonların qanının içən rus generalları Pisayevlə Zaxarov vəzifə naminə yerə-göyə sığmayan sevinclər süjetin təzadlığını artırır. Psixologizmi dərinləşdirən digər detal 20 Yanvarda öldürülənlər arasında Azadlıq meydanında, yaralılara yardım edənlər içərisindən rus millətinin nümayəndələrinin olması idi.

Dostu Məmmədqızının "Qan cığırı" (57, 3) "20 Yanvar" qəzetinin baş redaktoru Səlim Həqqiyə ittihaf olunmuşdur. Kiçik hekayənin süjet xəttinin mərkəzində şəhidlər xiyabanı dayanır. Ümumi süjet xəttinə tabe olan qəzet müxbiri Zərifə və 20 Yanvar yaralısı döyüşdə dünyasını dəyişən Gülər, Zərifə və oğlu şəhid olmuş, nəqliyyatda istifadə edəndə vəsiqəsi

olmayan şəhid anası, nəhayət, qəzetin baş redaktoru Şahidin və həyat yoldaşı Sənubərin ölümü kimi süjet xətləri hekayədə psixologizmi dərinləşdirən faktlardır. Ən çox sarsıntı keçirən də Zərifədir. Çünki Şəhidlər xiyabanından yazmaq, böyük vətəndaşlıq mövqeyi göstərərək şəhid ailəsinə diqqət göstərməyə çalışması diqqəti cəlb edir.

1990-cı illərdə dövrün mürəkkəb şəraitindən irəli gələrək təcrübə üçün gərəkli olan fasilə bədii ədəbiyyata qiymət verən və onu izləyən ədəbi tənqiddə də durğunluq yaratmışdı. Dövrün epoxal gerçəkliklərinə nüfuz, cərəyan edən hadisələrin bütün kəskin və anlaşılmaz, faciəvi və dramatik tərəfləri ilə birgə təcəssümü baxımından bu əsərlər ədəbi mühitdə, müasir təkamül prosesinə ciddi mənada bir təsir göstərə bilməmişdi. Tənqidçi Tehran Əlişanoğlu məhz bu faktı nəzərdə tutaraq yazırdı: "Müharibə mövzusunun dərkində uzun bir yol keçmiş ədəbiyyatdan bunu gözləmək olardı" (58, 4). Əlbəttə, keçid mərhələsi kimi səciyyələndirilən gərgin narahat və sıxıntılı ovqatla müşayiət olunan 1990-cı illərdə sənətkardan baş verən reallıqları ehtiva edən yüksək sənət nümunəsi gözləmək yaradıcılıq psixologiyasına zidd tələbdir.

20 Yanvar mövzulu bədii nümunələri təhlil edərkən onların bir sıra ümumi və xarakterik xüsusiyyətləri aşkarlanır; baş verənlərə operativ reaksiyanı əks etdirdiyi üçün bəzən poetik səviyyə tələskənliyə qurban verilir. Bu nümunələrdə ifadə olunan əsas fikir, əsas ideya xətti gözlənilməzlik, qəfil zərbə, hazırlıqsız yaxalanma kimi hisslərin ifadəsidir.

**Məqalənin aktuallığı.** Soyqırım tariximizin ayrılmaz hissəsi olan 20 Yanvar faciəsi mövzusunda bədii nümunələrin yazılması müasir dövrdə aktuallıq kəsb edir və xalqımızın başına gətirilən həqiqətlərin üzə çıxarmaq üçün araşdırılması böyük əhəmiyyət daşıyır.

**Məqalənin elmi yeniliyi.** 20 Yanvar faciəsinin ədəbiyyatda araşdırılmasına dair AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, fil.e.d. Almaz Binnətova, fil.e.d. Elnarə Akimova, fil.f.d. Nərgiz Cabbarlı, fil.e.d. Mərziyyə Nəcəfova və başqalarının müxtəlif səpkili tədqiqatları olsa da, bu mövzu ədəbiyyatşünaslıqda ayrıca olaraq tədqiqata cəlb olunmamışdır.

Bu dövrün ədəbiyyatda ikili səciyyəsi – onun həm qopub ayrıldığı sovet dövrünün rudimentlərini özündə daşıması, həm də bu qalıqlarla mübarizə apararaq yeni biçimdə özünü ifadə etməyə çalışması kimi əlamətlər onilliyin əsas göstəricisidir. 20 Yanvar faciəsinin poeziya və nəsrdə bədii inikasının analitik və müqayisəli təhlil metodu ilə araşdırılması tədqiqatın elmi yeniliyi arsenalına daxildir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

**QEYD:** Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/15/5.

## Ədəbiyyat

1. Məhərrəmova Təranə. 20 Yanvar faciəsi ədəbiyyatımızda. "Kaspi" qəz., 2018, 20-22 yanvar.

2. Heydər Əliyev. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayında nitqi. "Ədəbiyyat qəzeti", 1997, 7 noyabr.

3. Bəxtiyar Vahabzadə. Şəhidlər. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 30 noyabr.

4. Akimova E. Müstəqillik dövrü Azərbaycan poeziyasi müasir ədəbi təmayüllər

kontekstində: Filol. ü. elm. dok. ... dis. Bakı: 2017.
5. Q. Köçərli. Şəhidlər xiyabanı. "Xalq" qəzeti, 1993, 20 yanvar.
6. Yaqub Zəlimxan. Səslərin görüşü. "Xalq qəzeti", 1993, 20 yanvar.
7. T. Talıblı. Susmuş hünərə elegiya. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 30 avqust.
8. Vahid Əziz. Qırğın. "Yeni Azərbaycan" qəz., 2000, 20 yanvar.
9. S. Çıraq. Haqq ədalət Kərəm kimi yalnız indi... // Azərbaycan, 1994, № 1-3.
10. Xəzangül. Tanrı dərgahında. "Ədəbiyyat" qəz., 2 1991, fevral.
11. Alim Məmməd. Sahibin axtaran qol. "Ədəbiyyat" qəz., 1991, 22 fevral.
12. Alim Məmməd. 20 Yanvar küçəsi. "Ədəbiyyat" qəz., 1991, 22 fevral.
13. Piruz Dilənçi. Şəhidlər xiyabanı // Ulduz, 1991, № 1.
14. O. Ələkbərov. Şəhriyar nəfəsi. "Azərbaycan gəncləri" qəz., 1991, 22 yanvar.
15. Xəlil Rza Ulutürk. Sənin göz yaşların. "Ədəbiyyat" qəz., 1991, 18 yanvar.
16. Ələkbər Şahid. Şəhidlər. "Ədəbiyyat" qəz., 1991, 4 yanvar.
17. Tofiq Nurəli. Bu meydan // Ulduz, 1991, №1.
18. V. Babanlı. Başsağlığı. "Xalq qəzeti", 1992, 21 yanvar.
19. Hafiz Əli. Bakıda komendant saatı. "Ədəbiyyat" qəz., 1991, 18 yanvar.
20.Aslanbəyli Məhəmməd. Bu il. "Ədəbiyyat" qəz., 1991, 18 yanvar.
21. Fikrət Qoca. Ağlar. "Ədəbiyyat" qəz., 1991, 22 fevral.
22. Əlirza Hikmət. Şəhidlər xiyabanı. "Yeni Azərbaycan" qəz., 1998, 17 yanvar.
23. Yusif Bağırov. Şəhidlik. "Ədəbiyyat" qəz., 1992, 7 yanvar.
24. Abbasağa Azərtürk. Şəhidlərə // Ulduz, 1991, № 1.
25. Qaçay Köçərli. Bir ovuc şəhid torpağı // Ulduz, 1997, № 1.
26. Hüseynzadə Məzahir. Şəhid anasının dedikləri // Ulduz, 1996, № 1.
27. Arif Abdullazadə. O gecənin ağrıları. "Ədəbiyyat" qəz., 1991, 18 yanvar.
28. Aynur Ramizqızı. Larisanın xatirəsinə. "Səs" qəz., 1991, 18 yanvar.
29. Musa Ələkbərli. Oxu, Zeynəbim, oxu // Azərbaycan, 1990, № 12.
30. Məmməd Namaz. Körpə şəhidlərə layla // Ulduz, 1991, № 1.
31. Roza Qarabağlı. Şəhidlər. "Ədəbiyyat və incəsənət" qəzeti, 1990, 31 avqust.
32. Balaş Azəroğlu. Günahkar. "Ədəbiyyat" qəz., 1992, 17 yanvar.
33.Alim Məmməd. Doxsanıncı iyirmi Yanvar // Azərbaycan, 1992, № 1-2.
34. Hafiz Əli. Vətən şəhidləri.//"Azərbaycan" jurnalı, 1990, № 12.
35. Rəfail İncəyurd. Yanvar ağıları //"Ulduz" jurnalı, 1991, № 2.
36. Rafiq Yusifoğlu. Qan gölündə bitən gümüş azadlıq // Ulduz, 1991, № 1.
37. Mehdi Kamran. Şəhidlərə ölüm yoxdu. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 27 aprel.
38. Məhməmməd Ərğəvan. Şəhidlər. "Ədəbiyyat" qəz., 1991, 8 mart.
39. Eyvaz Qələmçəli. Yas saxlayır. "Ədəbiyyat" qəz., 2 1991, fevral.
40. Suğra Abdullazadə. Şəhidlər. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 16 fevral.
41. Abbas Abdulla. Kim ağlasın bizə qardaş. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 2 fevral
42. Adil Şirin. Şəhid gecəyə üç elegiya. "Xalq qəzeti", 1996, 20 yanvar.
43. Tofiq Abdin. Yanvar ağıları. "Ədəbiyyat" qəz., 1991, 18 yanvar.
44. Babək Bəhrəmoğlu. Şəhidlər. "Yeni Azərbaycan" qəz., 1998, 17 yanvar.
45. Aləmzar Əlizadə. Barıtlı qızın çantası // Ulduz, 1991, № 1.
46. Sabir Əhmədli. Qızıl güllə // Ulduz, 1992, № 1-2.
47. Mütəllibov Tofiq. Qərənfil məşəlləri. "Azərbaycan" qəz., 2010, 17 yanvar.
48. Şövkətin. Qərənfil yağışı. "Ədəbiyyat" qəz., 1991, 18 yanvar.
49. Ələkbər Salahzadə. Qərənfillər // Ulduz, 1996, № 1.

50. Elnarə Buzovnalı. Vətən şəhidlərinin xatirəsinə. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 28 dekabr.
51. Firuzə Əsədullayeva. Qərənfil, ay qərənfil. "Ədalət" qəz., 1994, 20 yanvar.
52. Kamran Mehdi. Qara bayraqlar, qırmızı qərənfillər // Ulduz, 1991, № 1.
53. Bəxtiyar Vahabzadə. Təzədən yaratsın yaradan bizi. "Ədəbiyyat" qəz., 1993, 18 yanvar.
54. Bəxtiyar Vahabzadə. Səbir elədik. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 27 aprel.
55. Sabir Əhmədov. Dənizdən gələn səda. "Ədəbiyyat" qəz., 1991, 4 yanvar.
56. Şamil Cahan. Qan izləri. "Ədəbiyyat" qəz., 1991, 25 yanvar.
57. Dostu Məmmədqızı. Qan cığırı. "Ədəbiyyat"qəz., 1994, 4 fevral.
58. Tehran. Əlişanoğlu Ədəbi ilin yekunları: ideoloji rakurs. "Ədəbiyyat" qəz., 1998, 6 fevral.

**А. Пашаева, П. Хасанли, Т. Емрахлы**

## Трагедия 20 января в художественной литературе (1990-2000)

### Резюме

В художественной литературе трагедия 20 января изображена в поэтических и прозаических произведениях. В исследовании, были изучены материалы изданные в 1990-2000 годах в периодических органах. В газетах «Азербайджан», «Молодежь Азербайджана», «Эдебиййат гезети», «Йени Азербайджан», «Сэс», «Халг», журналах «Азербайджан», «Улдуз». Объектом исследования являются поэма «Шехидлер», стихи «Мы терпели», «Пусть Всевышний создаст нас снова» Бахтияра Вагабзаде, а также сихи «В ночь 20 января» Гачая Кочерли, «Факели из гвоздик» Тофика Муталлимова, «Девяностое 20 января» Мамеда Алима, «Январский плач» Рафаэля Инджаюрда, «Встреча голосов» Залимхана Ягуба, «Январские рассказы» Сабира Ахмедова, рассказы «Кровавая тропинка» Досту Мамедкызы, «Кровавые следы» Шамиля Джахана в которых отображены различные аспекты трагедии. Основной целью исследования является исследование деталей грусти, гвоздики, мотивов гордости, сочувствия, национального самопознания в произведениях, написанных о событиях 20 января.

**A. Pashayeva, P. Hasanli, T. Emrahli**

## 20 january tragedy in literature (1990-2000)

### Summary

20 January tragedy theme was reflected in the poems and prose. 20 January tragedy was investigated on the plays which published in the 1990-2000 years media oulets as "Azerbaijan", "Azerbaijan youth", "Edebiyyat newspaper", "New Azerbaijan", "Ses", "Khalq" newspapers, "Azerbaijan", "Ulduz" journals. Objects of research are Bakhtiyar Vahabzade's "Martyrs", "We have patience", "Create us from the beginning to create us",

Qachay Kocherli's "20 January night", Tofiq Mutallibov's "Carnation torches", Memmed Alim's "90th 20 January", Rafael Inceyurd's "January elegy", Zelimkhan Yagub's "Meeting of voice", Sabir Ahmedov's "January stories", Dostu Mammadqizi's "Blood lane", Shamil Cahan's "Blood traces" stories was reflected the 20th January tragedy in different perspectives. The aim of investigation is to research the sadness, carnation detail, pride, pride, relaxation motives, moody issues which were about 20 January tragedy.

**Redaksiyaya daxil olub:** 28.06.2018